2024.-27 aprel,№15.-S.43

Ədəbiyyat qəzeti

# Yazıçı Qəni Camalzadənin oxucularla görüşləri



Bu günlərdə Bakı şəhərinin Sabunçu rayon MKS-ə daxil olan Mərkəzi Kitabxanada məhsuldar yazıçı-publisist, I Qarabağ müharibəsinin veteranı Hacı Qəni Camalzadənin ədəbi ictimaiyyət nümayəndələri və gənc oxucularla görüşü keçirilib. Yazıçı Q.Camalzadə ilə respublikamızın bir sıra bölgəsində silsilə görüşlər təşkil olunur. Bakı, Lənkəran, Lerik, Suraxanı və başqa rayonlardan sonra keçirilən bu növbəti tədbirdə də yazıçının yaradıcılığı haqqında məlumat almaq, eyni zamanda kitab və bədii söz adamları ilə görüşərək estetik dünyagörüşlərini artıran oxucular üçün imkan yaradıldı.

Görüşdə kitabxananın əməkdaşları, şair-publisist Ağacəfər Həsənli, AYB üzvü, "Molla Nəsrəddin" jurnalının icraçı direktoru Hacı İlham Qurbanoğlu, şair Babulla Hüseynzadə, "Ekologiya" qəzetinin baş redaktoru, şair Şahin Həmidli, "Lerik" və "Azad təfəkkür" qəzetinin baş redaktoru, yazıçı-publisit İdris Şükürlü, tanınmış ziyalı, qazi atası Elçin İskəndərov, eləcə də Tahir Hacıyev adına 252 saylı məktəb-litseyin kimya fənni müəlliməsi Gülzar Əkbərovanın başçılığıyla təhsil ocağının şagirdləri iştirak ediblər.

Tədbirdədə çıxış edən Ağacəfər Həsənli bildirdi ki, hələ tələbəykən əsərləri "Ədəbiyyat və incəsənət" qəzeti, "Kirpi", "Ulduz", "Azərbaycan" kimi nüfuzlu jurnallarda dərc olunan, dövri mətbuatda duzlu-məzəli yazıları ilə özünü yumoristik hekayələr müəllifi kimi tanıdan, son illərdə oxunaqlı romanları, Azərbaycanda və xaricdə nəşr olunmuş, xarici dillərə çevrilmiş kitabları ilə ədəbi prosesdə fəallıq göstərən Qəni Camalzadə, fəal ədəbi yaradıcılığı ilə yanaşı, televiziya kanallarında vaxtaşırı çıxış edən nüfuzlu ekspert, özünəməxsüs mövqeyi olan ziyalı, düşüncə adamı kimi tanınır.

Yazıçı Qəni Camalzadə çıxışında yaradıcı yolu, əsərləri, ziyalı mövqeyi haqqında məlumat verdi, onu düşündürən məsələlər ətrafında fikirlərini bölüşdü.

Qonaqların çıxışlarından sonra şagirdlər yazıçıya oxuduqları əsərlərindən suallar ünvanladılar, maraqlı ədəbi müzakirədə iştirak etdilər.

Sonda o da bildirildi ki, bu cür görüşlərə xüsusi ehtiyac olduğundan davamlı olaraq yazıçılarımızın oxucularla yaxından təmasına xidmət edəcək layihələr həyata keçirilməli, ədəbiyyatımızın, mənəviyyatımızın, kitabımızın, bədii sözümüzün, intellektimizin inkişafına təkan verəcək tədbirlər reallaşdırılmalıdır.

* * *

Yazıçı ilə başqa bir tədbir Bakı şəhər Mədəniyyət Baş İdarəsi, Xəzər rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin təşkilatçılığı ilə baş tutub. Maraqlı romanlar və oxunaqlı hekayələrin müəllifi Qəni Camalzadə ilə ədəbiyyat həvəskarları ilə görüş Dövlət Himnimizin səsləndirilməsi ilə başlanıb. Tədbirdə "Həkəri" qəzetinin baş redaktoru Rauf İlyasoğlu, şair Şahin Həmidli, gənc yazar Tural Əliyev, 149 saylı məktəbin müəllim və şagird kollektivi iştirak edib. Əvvəlcə yazıçının həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş olunub.

Şair-publisist Ağacəfər Həsənli qələm yoldaşı Q.Camalzadənin həyat və yaradıcılığı barədə geniş məlumat verib. Çıxışçı vurğulayıb ki, bir sıra maraqlı əsərləri ilə oxucu rəğbəti qazanan, I Qarabağ müharibəsinin qazisi Qəni Camalzadə ilə oxucuların görüşü həmişə yaddaqalan olur, onun özünəməxsus yazı üslubu, ədəbi dəsti-xətti var. 17 kitab müəllifi olan Qəni Camalzadənin "Seçilmiş əsərləri"ndən ibarət 6 cildi nəşr olunduğunu xatırladan A.Həsənli, yazıçının daha 9 cildinin çapa hazırlandığını da yada saldı.

Digər qonaqların çıxışından sonra 149 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Gülarə Muxtarova yazıçının əsərləri haqqında fikirlərini bölüşdü, kitabxanada fəaliyyət göstərən ədəbiyyat dərnəyinin üzvləri Q.Camalzadənin "Qayçı" hekayəsi əsasında hazırladıqları səhnəciyi nümayiş etdirdilər.

Sonra söz müəllifə verildi: Qəni Camalzadə yaradıcılıq planları barədə danışdı, iştirakçıların suallarını cavablandırdı. Sonda Xəzər rayon MKS-nin direktoru Jalə Əliyeva çıxış edərək belə görüşlərin əhəmiyyətini vurğuladı.

**A.Əhmədoğlu**